Məhəmməd Həşim Kamali

# İşarələrin dərk olunması: Quran nöqteyi-nəzərindən təfəkkür



Beynəlxalq İslam Fikri İnstitutu

# İşarələrin dərk olunması: Quran nöqteyi-nəzərindən təfəkkür

•

Məhəmməd Həşim Kamali

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

Bakı - 2020

© Beynəlxalq İslam Fikri İnstitutu, 2020
© “İdrak” İctimai Birliyi, 2020

The International Institute of Islamic Thought (USA)
P.O. Box 669, 500 Grove St., Suite 200, Herndon, VA 20170, USA
www.iiit.org

The International Institute of Islamic Thought (UK)
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

“İdrak” İctimai Birliyi
AZ1100, Bakı ş., M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN

Tərcüməçi: Natiq Adilov
Redaktor: Ülvi Babasoy
Bədii və texniki tərtibat: Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK/Q-)

# MÜNDƏRİCAT

Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
İşarələrin dərk olunması: Quran nöqteyi-nəzərindən təfəkkür . . . . .7
İlahi işarələr (ayələr). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .9
Biliyin mənbələri və vasitələri . . . . . . . . . . . . . . . . . . . . . . . 20
Düzgün qavrama prosesinə mane olan səbəblər . . . . . . . . . . . . . 25
Tənqidi təfəkkürün zəifləməsi . . . . . . . . . . . . . . . . . . . . . . . 27
İctihad nədir?. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Nəticə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
Qeydlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37

# GİRİŞ

Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) və Beynəlxalq Ali İslam Elmləri İnstitutu (BAİEİ Malayziya) İslam hüququ sahəsində məşhur alim və mütəxəssis, professor Məhəmməd Həşim Kamalinin müəllifi olduğu "İşarələrin dərk edilməsi: Quran nöqteyi-nəzərindən təfəkkür" adlı növbəti əsəri təqdim edir. Kamali şəriət ilə bağlı konseptual əsərlərin müəllifidir. Onun "İslam hüququnun prinsipləri", "Şəriət hüququ: giriş", "Hədis elmləri" və digər əsərləri dünyanın müxtəlif universitetlərində dərs vəsaiti kimi istifadə edilir.

Təqdim olunan əsərdə təfəkkür, məntiq və tənqidi düşüncə tərzi ilə bağlı məsələlər Quran nöqteyi-nəzərindən şərh edilmişdir. Kitab ilahi işarələr olan ayələrin şərhi və Quran nöqteyi-nəzərindən təfəkkürün formalaşmasında bu işarələrin funksiyasının müzakirəsi ilə başlayır. Bu anlayışlar kitabda semantik mərkəz təşkil edir. Quranda bilik mənbələrinin müəyyən edilməsi, məntiqli düşüncəyə mane olan faktorlar, elmi fəaliyyətin qızıl dövrü və sona çatması kimi məsələlər əsərə tematik zənginlik qazandırır. Kitabda ictihad mövzusuna da toxunulub. Həmçinin İslam və Qərb rasionalizminə fəlsəfi baxış da müqayisə obyektinə çevrilmişdir.

Tarixlər Hicri təqvimi ilə göstərildikdə HT, Qriqori təqvimi ilə göstərildikdə QT qısaltmaları ilə qeyd edilmişdir. Ehtiyac olduqda ərəb mənşəli sözlər mötərizə içində yazılmışdır.

Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) 1981-ci ildən bu vaxta kimi ciddi işlər görür. Dünyanın müxtəlif ölkələrində elmi və mədəni mühitin yaradılmasında xüsusi rol oynayır. BİFİ müxtəlif elmi tədqiqat proqramları həyata

keçirir, seminar və konfranslar təşkil edir, sosial elmlər və teologiya sahəsində elmi kitablar dərc edir. İnstitut tərəfindən ərəb və ingilis dillərində yeddi yüzdən çox fundamental kitab nəşr edilmiş və dünyanın aparıcı dillərinə tərcümə olunmuşdur.

2008-ci ildə Kuala Lumpurda təsis edilən Beynəlxalq Ali İslam Elmləri İnstitutu (BAİEİ Malayziya) isə İslam dini ilə bağlı praktiki, müvafiq məsələləri diqqət mərkəzində saxlayan müstəqil tədqiqat mərkəzidir. BAİEİ Malayziya İslam dünyası və İslam dininin digər sivilizasiyalardakı rolu ilə bağlı seminarlar keçirir və müxtəlif kitablar nəşr etdirir. İnstitut bütün dünyada geniş spektrli və dinamik bir foruma çevrilmişdir.

BAİEİ Malayziya "İslam və sivilizasiyaların intibahı" adlı beynəlxalq indeksli, rüblük jurnal, iki aydan bir "BAİEİ Bülleteni, İslam və aktual məsələlər", kitablar, monoqrafiyalar və silsilə nəşrlərlə diqqət mərkəzindədir. İnstitut keçən doqquz ildə müxtəlif mövzulara həsr olunmuş (ümumi sayı 280 olmaqla) seminarlar, müzakirələr, yerli və beynəlxalq konfranslar təşkil etmişdir. BAİEİ Malayziyanın fəaliyyət və nəşrləri haqqında www.iais.org.my saytından məlumat əldə edə bilərsiniz. Professor Kamalinin şəxsi veb səhifəsi isə www.hashimkamali.com-dur.

BİFİ-nin London ofisi *və* BAİEİ Malayziya, Kuala Lumpur
Fevral, 2018-ci il

# İŞARƏLƏRİN DƏRK OLUNMASI:
*Quran nöqteyi-nəzərindən təfəkkür* [1]

Quran yaradılışın ilahi məqsədlərini təcəssüm etdirən ayələr (Allahın kainatdakı işarələri) doktrinasını öyrədir. Buna görə də Quranda *"la-ayatin liqavmin yaqilun"* (Quranda Allahın hikmət və qüdrətinə dəlalət edən əlamətlər vardır. 2:164) ifadəsi tez-tez təkrarlanır. İlahi işarələrin bu əhəmiyyətli rolu insanların qarşısına ayələrin məntiqli şəkildə başa düşülməsi, həqiqətin və doğru yolun dərk edilməsi öhdəliyini qoyur.

Ayələrin insanlar tərəfindən qəbul edilməsi işarələrin dərk edilməsi üçün zəruri olan təfəkkürdən asılıdır. Fərdlər təfəkkür etməyə meyil etdikcə bilik və təcrübələrinin miqyası böyüyür. Nəticədə ilahi tələblərə daha yüksək səviyyədə cavab verirlər.

İşarələrin dərk edilməsi mətnlərdə gizli məlumat, istinad və eyhamların qavranılmasıdır. Bura subyektiv şərhetmə və işarələrdə gizli qalan mənanın başa düşülməsi daxildir. Bu məqamda görmədiyimiz və başa düşmədiyimiz dərin mənaların olması mümkündür və demək olar ki, bu qəbildən mənaların axtarılması zəruridir. Nəticədə işarələrin dərk edilməsi funksiyası və ya semiotikası (həmçinin semiologiyası) bizə ətraf mühitdə baş verən hadisələri qavramaqda kömək edir və daha dərin qatlara enməyimizə şərait yaradır (1).

Təbiətdə tüstü hər hansı bir yanğın hadisəsinin baş verməsindən xəbər verir. Qara buludlar tezliklə yağışın yağacağına işarədir. Qızdırma hər hansı bir xəstəliyin or-

---

[1] Bu, "İslam və Elm" jurnalının 4-cü cild, 2-ci nömrəsində (2006-ci ilin qış nömrəsi) dərc olunan məqalənin yenidən işlənmiş və təkmilləşmiş versiyasıdır.

taya çıxması ilə nəticələnə bilər. İşarələrin ənənəvi (insan tərəfindən formalaşdırılan, mədəniyyətlə əlaqəli işarələr, süni işarələr) və təbii (təbii şəkildə ortaya çıxan işarələr) olmaqla iki yerə ayrılmasına baxmayaraq, təbii işarələrin tarixi və fəlsəfi aspektlərdən əhəmiyyətsiz olması faktı qabardılmışdır. Ənənəvi işarələr daha yüksək səviyyədə təqdim olunmuş və təbii işarələr ənənəvi şərhlər çərçivəsində cılızlaşdırılmışdır. Elm və texnologiya da daxil olmaqla müasir həyatımız mütləq şəkildə təbii işarələrin kodlarının açılmasına əsaslanır. Daha dəqiq desək, ünsiyyət yanlız işarələr vasitəsilə mümkündür. Bununla belə, biz təbii işarələri xammal mahiyyətində qiymətləndiririk. Təbii işarələr tez-tez bizim diqqət mərkəzimizdən kənarda qalır. Gün ərzində belə məqamlara və verilmək istənilən mesajlara diqqət yetirmək lazımdır.

Qədim Yunanıstanda işarələr fəlsəfi yöndən xüsusi məna kəsb etmirdi. Yalnız tibbi simptomlar termini müstəvisində nəzərə alınırdı. İşarələr qədim yunan dilində "semeon" adlanırdı. Umberto Eko 1976-cı ildə qələmə aldığı "Semiotika nəzəriyyəsi" adlı kitabında yazır: "Qədim yunanlar məntiq, qrammatika və natiqlik sənətində inkişaf etsələr də, bu gün başa düşülən və dərk edilən işarələr anlayışına malik deyildilər". Onu da qeyd edək ki, IV əsrdə (QT) Müqəddəs Avqustin işarələr anlayışını fəlsəfə elminə daxil etmişdir. O, təbii işarələri nəzərə almamış və yalnız ənənəvi işarələrə diqqət yetirmişdir. Bununla belə, Müqəddəs Avqustindən sonra XVII əsrə kimi semiotika sahəsində elə ciddi bir iş görülməmişdir. Bütün elm sahələrində olduğu kimi, İslam sivilizasiyalarının töhfələri ya dil baryeri nöqteyi nəzərindən, ya da qeyri-müvafiq hesab edildiyindən nəzərə alınmamışdır.

Maarifçilik dövründən etibarən təbii işarələr diqqəti cəlb etməyə və geniş mənada təhlil edilməyə başlandı. Rasionallıq və məntiq daha çox əhəmiyyət kəsb etdiyi üçün "təbii" məfhumu "mədəni" anlayışını üstələdi. Ona görə

də insanların ortaya çıxardıqları simvollar “qeyri-təbii” və “süni” olaraq qiymətləndirildi. Bir daha vurğulamaq lazımdır ki, bu proses ənənəvi mahiyyət sərhəddini aşmamış semiotikanın bir elm kimi formalaşması deyil, həmin dövrdəki elmi nailiyyətlərin təbliğ edilməsi çərçivəsində müşahidə edilən tendensiya idi (2).

İslam dünyasının qızıl çağında təbii işarələr mədəniyyətlə bağlı elementlər hesaba alınmaqla nəzərdən keçirilirdi ki, bu da fərqli bir yanaşmanın ortaya çıxmasına şərait yaratdı. “Təbii dünya”ya, naturaya olan bağlılıq elmdə təcrübələrin geniş vüsət almasına təkan verdi. Bu proses Quranın təbii işarələrlə insan intellekti arasındakı əlaqəni əsas götürməsi ilə baş vermişdir.

İslam dinində “‘əql” (intellekt) məfhumu etik dəyərlərlə bütünləşən biliyin iman ölçüsünü ehtiva edir. Quranda ağıl məsələsinə dəfələrlə toxunulmuşdur. Müqəddəs kitabın bu xüsusiyyəti iman və ağıl arasındakı vəhdəti göstərir. İman və ağılın vəhdəti reallığın metafiziki aspektinin və insan şüurunun sərhəddinin göstəricisidir. XX əsrdə Qərbdə məntiq və mədəniyyətlə bağlı münasibətlər ən incə nüanslarına qədər aydınlaşdı, qeyd edilən fərqlər müşahidə edildi və İslam diskursunda bu fərqliliklərə diqqət yetirilməyə başlanıldı (3).

## I. İLAHİ IŞARƏLƏR (AYƏLƏR)

İman və ağıl arasındakı əlaqə insan intellektinin və hisslərinin ahəng içində olmasına istiqamət verən İslam mənəviyyatının nişanəsidir. Quran mütəmadi olaraq bu müqəddəs kitabı oxuyanları kainatda və öz daxillərində Allahın varlığını göstərən işarələr haqqında düşünməyə, Allahın varlığını dərk etməyə və həqiqəti qəbul etməyə səsləyir. Ərəb dilində “ayah” sözü və bu sözün cəm forması “ayat” Quranda 400 dəfədən artıq istifadə olunub və ən vacib məsələ budur ki, Quran özünü ayələrin məc-

musu olaraq təqdim edir. Quranda buyurulur: "Biz öz qüdrət nişanələrimizi (ayatina) onlara həm xarici aləmdə (afaq), həm də onların öz daxilində (ənfusihim) mütləq göstərəcəyik və hər kəsə agah olacaq ki, bu həqiqətdir" (4) "Sübut axtaranlar (əl-muqinin) üçün yer üzündə və öz daxilinizdə işarələr (ăyăt ) mövcuddur. Bunları görmürsünüzmü?" (5)

Allah bəzi işarələri açıq, digərlərini isə üstüqapalı formada nəzərə çatdırır. Sonuncu qeyd edilən forma ayələr vasitəsilə insanı düşünməyə sövq edir. Allahın qüdrət nişanələri sadəcə səthi yanaşma ilə qavranıla bilməz, buna görə də onların dərk edilməsi təfəkkür tələb edir. Bu məqam "Biz öz qüdrət nişanələrimizi mütləq göstərəcəyik ..." (41:53) ayəsində izah olunur və buradan da başa düşülür ki, bu işarələr hər kəs üçün aydınlaşmır. Ayələrlə bağlı ümumi konsepsiyada ən əsas amil vəhy ilə ağıl arasında dinamik əlaqənin yaranmasıdır. "Biz sizin üçün nemətlərlə dolu kitab endirdik ki, oradakı işarələri dərk etmək üçün təfəkkür edəsiniz və bunları başa düşən insanlar nəticə çıxarsınlar"(6). İşarə özündən başqa anlayışın mövcud olduğunun göstəricisidir və buna görə də vəhydə son mesaj kimi nəzərə alınmamalıdır.

Quranın 750 ayəsi və ya səkkizdə biri bu müqəddəs kitabı oxuyan şəxslərə təbiət, tarix, Quranın özü və ümumi mənada insanlıqla bağlı araşdırma aparmağa yönləndirir. Kitabda qulaq asanlara (yasmaun), təfəkkür edənlərə (yatafəkkərun), fikirləşənlərə (yatadabbarun), müşahidə edənlərə (yanzurun), ağıllarını istifadə edənlərə (yaqilun), diqqətli olub xatırlayanlara (yatadhakkarun), sual soruşanlara (yasalun), qavrayanlara (yatafaqqahun) və bilənlərə (yalamun) aid çox sayda ifadələr istifadə olunub (7). Bu ifadə və cümlələr təfəkkür etməyin hər hansı bir metodologiya və ya çərçivə ilə məhdudlaşmamasına dair açıq çağırışdır. "Afala yatadabbarun al-Qur'an (Onlar bu Quran haqqında düşünməyəcəklər?") (8). "Tadabbur" sözü

hər hansı yeni bir anlayışın, məfhumun tapılması və ya çətin bir problemin həll edilməsi üçün diqqəti cəmləmək, yaxud fikirləşmək mənasına gəlir.

Təbiətin semiotikası haqqında Nettona (1989) istinad etsək, Quran "tam mənası ilə semiotika mütəxəssislərinin cənnəti olaraq təsvir edilə bilər" (9). "Göylərdə və yerdə (Allahın birliyini sübut edən) neçə-neçə əlamətlər (nişanələr) vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər (onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında düşünməzlər)" (*Yusif*, 12:105). "Gecə və gündüz yatıb dincəlməyiniz (gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız), nemətindən ruzi (qismətinizi) axtarmağınız da onun qüdrət əlamətlərindəndir. Həqiqətən (öyüd-nəsihət) eşidənlər üçün bunda ibrətlər vardır" (*Ər-Rum*, 30:23). "Allah yer üzündə yaratdığı cürbəcür şeyləri (heyvanları, bitkiləri, meyvələri və s.) də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da (Allahın qüdrətini, əzəmətini bildirən) əlamətlər vardır" (Ən-Nəhl,16:13). **Yaradanın** işarələri göstərməsinin ən mükəmməl sübutu olan, zahiri dünyanın və insanların daxili aləminin reallıqlarını aşkara çıxaran Quran virtual olaraq sonsuzluğa qədər davam edir. Quran nişanələrlə o qədər zəngindir ki, bu əlamətləri konkret hər hansı bir kateqoriyaya və ya sahəyə aid etmək praktiki olaraq mümkün deyildir. Bəzi nümunələr verməli olsaq, Quranda təbiət hadisələri (Yasin, 36:37, 36:33), metafiziki hadisələr (Əş-Şuəra, 26:4, Əl-İsra, 17:59), xəbərdarlıq (17:59), mərhəmət (Ən-Nəhl ,16:11), cəza (Əz-Zuxruf, 43:48), bayram etmə (Əl-Maidə, 5:114), ünsiyyət (Ər-Rum, 30:22), mətn nişanələri (Ən-Nəhl, 16:101), tarixi hadisələr (Yunus, 10:92, Əl-Ənkəbut, 29:15, Ən-Nəml, 27:52, Ər-Rum, 30:58), maddi əşyalar (Əl-Bəqərə, 2:248), miras qalan elm (Əş-Şuəra, 26:197), texnologiya (Yasin, 36:41), dəlil (Yunus,10:15), bəşər övladı (Əl-Ənbiya, 21:91, Əl-Muminun, 23:50) ilə bağlı əlamətlər əks olunub. Quranı oxu-

yan və mütaliə edən hər bir şəxs hər hansı bir ardıcıllıq gözləmədən bu nişanələri dərk etmək üçün müşahidələr aparmalı, səyahət etməli, tədqiqat aparmalı, sınaqlar keçirməli və hər kəs özünəməxsus yollarla nəticə və qənaət əldə etməlidir.

Quranda təfəkkür və əqli potensialın istifadə edilməsi beş əsas mövzu ilə əlaqələdir: Allahın tək, vahid, bənzərsiz və mərhəmətli olmasını qəbul etmək (*tövhid*), Quran haqqında təfəkkür etmək, bəşəriyyət *və* kainat, tarixdə baş vermiş hadisələr və təfəkkür. Quranda 49 dəfə əql sözünə istinad edilir. "Ulu əl-*ə*lbab" (düşünmə qabiliyyəti olan və başa düşən insanlar) və bu ifadənin sinonimi "ulu əl-nuha" (intellekt *bəxş edilmiş insanlar) Quranda 33 dəfə istifadə olunur.*

Bu cür ifadələr "Allah sizə öz ayələrini, (hökmlərini) bu qaydada aydınlaşdırır ki, düşünüb anlayasınız " (10) və "Əgər düşünüb dərk edirsinizsə (onların sizə bəslədikləri ədavət barəsindəki) ayələri artıq sizə izah etdik" (11) nümunələrində olduğu kimi ayə sözləri ilə eyni anda istifadə olunur. Ayələrin dərk edilməsi ilə bağlı təkrarların səbəbləri fərqli intellekt və təfəkkürə malik insanların olması səbəbindən hər kəsin müxtəlif kontekstlərdə başa düşməsinə imkan yaratmaqdır (12).

Əl- Rağib əl-İsfahani (ö.t. 502/1108) düşüncəni (əl-fikr) biliyə (elmə) aparan yolda ağıl üçün ən vacib faktor kimi qiymətləndirir. Təfəkkür intellektual fəaliyyət nəticəsində ortaya çıxır və bu təfəkkür edən insanın düşüncəsində yaranan ilkin təsəvvür sayəsində mümkündür. Bu səbəbdən belə qənaətə gəlmək olar ki, təfəkkür hər hansı bir anlayış və təsəvvür olmadan mümkün deyil. Bu, Allah üçün də deyilə bilər, çünki heç bir insan onunla bağlı heç bir təsəvvür yarada bilmədiyi üçün bu haqda fikirləşə də bilmir (13). İnsanlar yalnız nişanələr və əlamətləri düzgün müşahidə etməklə Allahın varlığının sübutu olan işarələr ilə bağlı əsaslı qənaət və təfəkkürə sahib ola bilər-

lər. Məsələyə daha geniş aspektdən yanaşsaq, təfəkkür heç bir istisna olmadan bütün kainat ilə bağlı olmalıdır, çünki Quranda tez-tez istər müasir zaman kontekstində, istərsə də keçmiş baxımından reallıqların fiziki və mücərrəd nöqteyi-nəzərlərdən qavranılmasının görmə ilə deyil, intellekt vasitəsi ilə mümkün olması vurğulanır. Quranda başqa tayfalar, qövmlər ilə bağlı nümunələr kifayət qədərdir və bunlardan sonra Allah digər insanları keçmiş hadisələrdən nəticə çıxarmağa səsləyir. Quranda Allah peyğəmbərlərə (səs)[2] müraciət edərək digər insanlara keçmiş ilə bağlı həqiqətləri çatdırmalarını istəyir ki, insanlar təfəkkür edərək əvvəlki qövmlərin səhvlərini təkrar etməsinlər (14).

Eyni zamanda dərketmə və əqli funksiyanın beş iyerarxiyası (eşitmə, görmə, təfəkkür etmə, xatırlama və əmin olma) da təklif olunur (15). Quran qavrama və dərketmə ilə bağlı sistemli, konseptual fikir və anlayışlar təqdim edir. Beləliklə, müvafiq dərketmə qabiliyyəti olan şüurlu insanlar məfhumuna diqqəti çəkir. Bu nöqteyi-nəzərdən ağıl imanın düşüncə ölçüsüdür. Ən vacib nünaslardan biri budur ki, ərəb dilində ağıl və şüur ilə bağlı istifadə edilən "əql" sözünün semantikasında "məhdudiyyət" və "məcburiyyət" kimi məna çalarları da mövcuddur. Bu xüsusiyyət insanların günahlara yol açacaq fəaliyyətləri görmələrinə mane olur. Quranı tədqiq edən alimlər bunu qeyd edirlər ki, təfəkkür nəticə hadisəsi kimi deyil, düşünmə prosesi kimi səciyyələndirilməlidir.

İlahi məzmunlu təfəkkür ibadətin bir növü hesab edilir. Qurana görə, ağıl həqiqətin axtarışı üçün istifadə edilən məfhumdur. Quranın konsepsiyasında nalayiq əməl və davranışlar, yolunu azma və kobudluq qəbul edilməzdir. Quranda təfəkkür ilə bağlı məqamlar çoxdur. Buna görə

[2] Səllallahu aleyhi və səlləm – Allahın rəhməti və bərəkəti üzərinə olsun.

də bəzi mütəxəssislərə görə, hər bir müsəlman təfəkkür edən fərd olmalıdır (16).

Əl-Qaradavi "bir saatlıq təfəkkür neçə illik ibadətdən daha üstündür" və "bir saatlıq təfəkkür gecə boyu edilən ibadətdən daha üstündür" kimi fikirlərini əsaslandırmaq üçün İbn Qayyim əl-Cavziyyəyə (ö.t. 751/1350) istinad edir. İbn Qayyim qeyd edir: "Təfəkkür ürəklə, ibadət isə bədən üzvləri ilə əlaqəlidir. Ürək bədən üzvlərindən daha üstündür". Dindar xəlifə Ömər ibn Əbdüləzizin (ö.t. 101/718) də bununla bağlı diqqətə alınmalı olan fikirləri vardır. "Allahın verdiyi nemətlər ilə bağlı təfəkkür etmək ibadətin ən yaxşı formasıdır". Abbas Mahmud əl-Akkad məsələyə daha da ciddi yanaşmışdır. "Təfəkkür İslamın öhdəliklərindəndir. Hər şeyə qadir olan Allah bizə ibadət etməyi, oruc tutmağı əmr etdiyi kimi Quranın müxtəlif ayələri vasitəsi ilə təfəkkür etməyi də öhdəlik kimi qoyur və bu onu göstərir ki, Quranın əsas mesajı təfəkkürdür" (17).

Quranda bəhs edilən bilik "fəhm" və "idrak etmə" kimi xarakterizə edilməlidir. Müxtəlif ayələrdə məntiqli şəkildə müşahidə aparmaq, təfəkkür etmək, kainatın görünən və görünməyən tərəfləri haqqında düşünmək kimi idraki məsələlər vurğulanır. Quranda bəhs edilən elm idrak ilə birləşir. Bu da dinin məntiqli yanaşma tələb etməsinin göstəricisidir. Bu baxımdan İslam ümumdünya dinidir. Başqa sözlə desək, İslam dini konkret məfhumlara deyil, idrakı inkişaf etdirən analitik biliyə üstünlük verir. Bu iki yanaşma "əl-iman əl-tafşili" (təfsilatlı təhlilə əsaslanan iman) və "əl iman əl-icmali" (dərk edilməmiş iman) ifadələri ilə izah edilir. Birinci yanaşma bütün alimlər tərəfindən qəbul edilir. Müxtəlif təmayülləri eyni düşüncə çətirinin altına toplayır. Bu məsələ aşağıdakı ayədə də izah olunur. "Ehtiyac olmadıqda möminlərin hamısı cihada, döyüşə birdən çıxmamalıdır. Barı hər tayfadan bir dəstə elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək

üçün qalsın ki, camaat döyüşdən qayıtdığı zaman onları Allahın əzabı ilə qorxutsun. Bəlkə onlar əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən çəkinərlər" (18).

Hüquqi və hədislərlə bağlı ifadələrdə istifadə edilən "elm əl-dirayah", yəni qavrama və düşüncə ilə qazanılan bilik, həmçinin "elm əl-rivayah", yəni hazır şəkildə əldə edilən bilik ifadələrində əks olunan məlumatlar ilə biz bu iki anlayışın fərqini dərk edirik. Birincisi, qavrama və idraka əsaslanır. İkincisində isə anlayışdan daha üstün olan mahiyyət nəzərə alınır. "Elm əl-rivayah" yaddaşa, hafizəyə əsaslandığı halda, "elm əl-dirayah" dərketmə, təhlil ilə mümkün olur. Beləliklə, dərketmə, təfəkkür, fəhm ilə əlaqəsi olmayan, rasional təhlil ilə müqayisədə daha çox iman və ibadət məsələsinə üstünlük verilən hədislər istisna olmaqla digərləri, əsasən, qəbul edilmir.

Quranda təfəkkür və düşüncə ilə bağlı diqqət mərkəzində saxlanılan digər bir məsələ də qeyd edilən anlayışların əhəmiyyətini göstərən, dəyərlərini və nəticəsini ortaya çıxaran hikmət və düzgün mühakimə etmək qabiliyyətidir. Hikmət və düzgün mühakimə biliklərin həm sadə, həm də hazır şəkildə mövcud olmasından daha əhəmiyyətlidir, həmçinin bunların sayəsində mükəmməlik anlayışına nail olmaq olar.

Quranda "hikmət" (hikmah) sözü iyirmi dəfə keçir və iyirmi kəlmənin yarısında isə kitab sözü, yəni daha çoxu Quran daxil digər müqəddəs kitablar nəzərdə tutulur. Quranda İsa peyğəmbər üçün belə deyilir: "Allah ona (İsaya) yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək" (19). Kitab və hikmət anlayışlarının birlikdə qeyd edilməsi insanlara elm, hikmət öyrədən peyğəmbərlərin göndərilməsi kontekstində verilir (məs., Məhəmməd peyğəmbər ilə bağlı "(Bu Peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara Allahın ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı

və hikməti (Quranı və şəriəti) öyrədər" ayəsi (20), İbrahim peyğəmbərin (21) və Loğmanın (22) övladları ilə bağlı digər ayələr).

Quranda hikmətin ümumbəşəri, ali və mükəmməl dəyərə malik olması "Allahın istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş etməsi deməkdir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir" ayəsi ilə bunu daha aydın başa düşürük (23). Hikmət və kitab anlayışlarının birlikdə istifadəsi açıq-aşkar Quranın dərk edilərək oxunulmasının zəruriliyinə işarədir. İnsanların dəqiq bir yanaşma nümayiş etdirərək Quranı oxuması ilahi məqsədlər ilə ziddiyət təşkil edir və bu müqəddəs kitabın mahiyyətinə uyğun deyil. Həmçinin Quranı hikmət müstəvisində oxumaq, sözlərin mənalarının daha dərin qatlarına nüfuz etmək, verilmək istənilən mesajları qavramaq və bunların fərdlərlə cəmiyyətlər üçün necə faydalı olacağı ilə bağlı düşünmək mənasına gəlir (24).

Quranda bir çox hallarda "kitab" və "hikmət" anlayışlarının birlikdə təqdim edilməsi Qətadə ibn Diamə əs-Sədusi (ö.t.118 HT), İmam Malikin (ö.t. 179/795) tələbəsi İbn Vahhab, İmam əş-Şafi (ö.t. 205/820) kimi İslam alimlərində qeyri-adi fikir formalaşdırıb ki, "hikmət" sözü peyğəmbərin sünnətinə işarədir. Bəzi alimlər bu fikri qəbul etmiş və bu mövzunu öz əsərlərində işləmişlər. Ancaq Quranda "hikmət" sözü ilə bağlı belə məna göstərilmədiyi üçün bu söz öz təbii və vahid mənasında işlədilməlidir. Düzgün mühakimə, idrak, tarazlıq və ekstremizmdən yayınmaq, həqiqət və cəhalət arasındakı fərqi dərk etmək, dəqiqlik kimi anlayışlar daha çox "hikmət" ilə əlaqələndirilir və buna görə də "hikmət" Quran ifadələrinin mənasını tam başa düşmək üçün təfəkkürün ölçüsüdür. Bundan əlavə, Quranda izah edilidiyi kimi, Rəhman olan Allah Davud və Süleyman peyğəmbərə və müdrik şəxs olan Loğmana hikmət bəxş etdiyi üçün bunu Məhəmməd peyğəmbərin sünnəti hesab etmək düzgün olmazdı, çünki həmin vaxtlarda

sünnət mövcud deyildi. Quranda hikmətin geniş mənada istifadə edilməsi təfəkkürün əhəmiyyətini artırır. Hikmət eyni zamanda ağıl və qəlb arasında əlaqələrin yaranmasına təkan verir. Buna görə ona "qəlb zəkası" da deyilir. Bu, Quran və sünnətə məxsus bir xüsusiyyətdir, həmçinin mövcud qanunvericilik aktlarından fərqli olaraq, Quranın təlimatları, göstərişləri, qadağaları həm oxucuların ürək və ağıllarına xitab edir, həm də dərk edilmək üçün tez-tez "qəlb" sözü istifadə edilir (25).

Əl-İsfahani "hikmət" anlayışının mənasını belə şərh edir: "Həqiqətin bilik və intellekt vasitəsi ilə dərk edilməsi və xeyir işlərdə istifadəsi" (26). Digər bir tərif isə belədir: "İdrak həqiqətin, reallığın agah olunmasını və mükəmməliyə nail olma yolunda mənfi hərəkətlərdən uzaq olmağı səciyyələndirir" (27). "The Random House Dictionary of the English Language" ("İngilis dilinin məişətdə istifadə olunan sözlər lüğəti") "ağıl" sözünə belə bir izah verir: "Fəaliyyətin mühakimə edilməsi ilə həqiqətin dərk edilməsi". Ağıl qəlb işığından ilham alınaraq təfəkkür etməkdir və bu prosesin nəticəsində digər müvafiq faktorlar ilə əlaqə haqqında fikirlər formalaşır. Bu məşhur bir hədisdə qeyd olunan fikir ilə eynilik təşkil edir: "Ağılın ən yüksək dərəcəsi Allah qorxusudur" (28). Yəqin ki, elə bu səbəbdən dünyanın əsas dinləri bilik axtarışında olan şəxsləri ağıl və idraka səsləyir. Məhz ağıl sayəsində dərin təfəkkür mümkün olur və bu xeyir işlərin yayılmasına töhfə verir.

Təfəkkür səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə Əl-Qəzzali (ö.t. 505 /1111) müsəlman ənənələrində qəbul edilən iki bilik növündən bəhs edir. Bunlardan biri insanlar tərəfindən öyrədilən bilik (əl-təallum əl-insani), digəri isə Allah tərəfindən öyrədilən bilikdir (əl-təlim əl-rəbbani). Birincisində bilik müəllimlər tərəfindən tələbələrə öyrədilir, ikincisi isə daha ali bilikdir, bura yaradılışın dərk edilməsi aiddir. İkinci məqamda bilik vəhy (peyğəmbərlər üçün) yolu və ya meditasiya, təfəkkür və

düşünmə ilə mümkün olur. Əl-Qəzzali belə bir fikrin tərəfdarıdır ki, böyüməyin mahiyyəti toxum və torpaq ilə əlaqəli olduğu kimi, biliyin də mahiyyəti insanın daxili ilə bağlıdır və məhz öyrənmə sayəsində fərdlərin qabiliyyətləri üzə çıxır. Biliyin bu iki aspekti bir-birini tamamlayır. Bunun bir səbəbi də odur ki, heç kim bütün elmləri müəllimlərdən öyrənə bilməz. Bəzi biliklər öyrənmək yolu ilə əldə edilsə də, böyük bir qismi insanların təfəkkürü sayəsində mümkün olur. Bu baxımdan öyrənmə həm biliklərin qəbul edilməsi, həm də təfəkkür, düşüncə vasitəsi ilə mümkün olur (29). Bu, biliyin ağıl, təfəkkür, düşüncə və mütaliə yolu ilə əlaqələndirilməsinin başqa sözlərlə ifadə edilməsidir.

Əl-Qəzzalinin biliyin daxili və xarici mənbələri ilə bağlı fikirləri İbn Sindin (ö.t.428/1037) düşüncələri ilə müvafiqlik təşkil etsə də, İxfan əl-Şəfanın (373/983) fikirlərindən qismən fərqlənir. İxfan əl-Şəfaya görə, bütün bilik ancaq öyrənməklə əldə edilir və insan təbiətinə xas deyil. O, aşağıdakı fikri dəstəkləyirdi: "Bilik düşüncələr vasitəsi ilə artır və təfəkkür ağılın inkişafına ciddi kömək edir".

Eyni təhlil ağıl vasitəsi ilə əldə edilən və təsdiqini tapan fərziyyələr ilə bağlı aksiom biliklərə də aiddir. Bu nəzəriyyənin tərəfdarı olan İxfan əl-Şəfa Quran ayəsindən sitat gətirirdi. "Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı" (30). Bu baxımdan bütün biliklər sonradan qazanılır və bu düşüncə mövzu ilə əlaqəli müasir nəzəriyyələr ilə bənzərlik təşkil edir.

Orta əsrlərdə İslam dinində maddi obyektlərlə mənəvi, şüuraltı obyektlər arasında ontoloji prizmadan fərqin qoyulması qəbul edilmirdi. Bu, reallığın nəzərə alınması baxımından elmin müasir pozitivizm doktrinasından daha məntiqli yanaşmadır. Varlıq müxtəlif səviyyələrdə təcəssüm edir və heç biri digərindən az real deyil. Ərəb düşüncəsində Stoaçılıq nəzəriyyəsinə görə sistemləşdirilmiş və

üç formada ifadə olun anlayışlardan istifadə olunur: şifahi nitq, fiziki hərəkətlər (bədən dili) və reallıq. Bununla belə, reallıq sadəcə yaradana məxsus olduğu üçün istisna edilir. Əbu Nəsr əl-Fərabi (ö.t. 950 QT) bu yanaşmanı qəbul etmiş və mənəvi (ruh) məsələlərini də ağıl müstəvisində öyrənilmək üçün bura əlavə etmişdir. Digər alimlər də bu bölgünü qəbul etmiş və müqəddəs kitabları da bura əlavə etmişlər. Bu nöqteyi-nəzərdən reallığın təcəssüm etməsindən, şüurlarda (bunların ikisi mənəvi təcəssümü ifadə edir) həkk olunmasından, yaxud səs və nitqin ifadə edilməsini göstərən simvolları üzə çıxarmasından asılı olaraq dörd əsasdan ibarətdir. Bunların hamısı yaradılışla bağlı ümumi və ortaq xüsusiyyətlərə malikdir (*həqiqət*).

Həm İslam, həm də Qərb yanaşmasında yaradıcı, tənqidi təfəkkür təlim və nəzarət altında saxlanılan fəaliyyətlər nəticəsində inkişaf etdirilməsi mümkün olan qabiliyyət kimi qəbul olunur. Məhz təlim və təfəkkür sayəsində insanlar reallığı daha fərqli aspektlərdən qavraya bilirlər. Deməli, təlim və təfəkkür daha fərqli və yaradıcı yanaşmaya təkan verir. Ümumi olaraq belə qəbul olunur ki, yaradıcı və tənqidi təfəkkür qarşılıqlı nəzərə alınmalıdır, çünki bunlar bir-birini tamamlayır. Tənqidi yanaşma "düzgün mühakimə və müşahidə tələb edən" mənasına gəlir. Hər hansı bir qərarın verilməsinə səbəb olan faktorların qiymətləndirilməsi nəzərə alınırsa, tənqidi təfəkkür yaranmış olur. Bununla belə, bu cür qiymətləndirmə çox düzgün və sistemli şəkildə həyata keçirilməlidir (34). Tənqidi təfəkkür anlayışların formalaşması, fərqli düşüncələrin qiymətləndirilməsi və problemlərin həll edilməsinə kömək edir. Ümumilikdə, hər hansı bir şəxs konkret məlumatlar əldə etdikdən sonra mücərrəd anlayışlar ilə bağlı təfəkkür edə bilər. Məhz bu prosesi tənqidi təfəkkür adlandırmaq mümkündür (35). Həm də tənqidi təfəkkür İslam dininə aid olan "təfəkkür hikmət nuruna bələnib" fikri ilə oxşarlıq təşkil edir.

Məşhur və ziddiyyətli bir hədis var: “Allah ən birinci ağılı yaratdı” (əvvəli məxluqa Allahu əl əqla). Bu hədis əsrlərdir ki, müsəlman alimləri arasında mənanın tam olaraq dərk edilməsi baxımından davam edən müzakirələrin yaranmasına səbəb olub. Ağılın vəhydən daha üstün olması və bu iki anlayışın qarşılıqlı əlaqəsi də müzakirə olunan məsələlər arasında yer alır. Digər müzakirə olunan mövzu isə insanlarda ağıl, dərrakə, şüur fərqli səviyyələrdə olduğu üçün onların fərqli mənəvi öhdəliklərə malik olub-olmamasıdır. Əbu Bəkr əl-Razi (ö.t. 313/925) və bəzi məşhur alimlər ağılın vəhydən daha üstün olması fikrini təbliğ ediblər. Bu, ağılın vəhydən üstün olması ilə səciyyələnən “rasionalizm” anlayışını ifadə edir. Həmçinin ümumi səbəblər çərçivəsində müəyyən bir məsəsləyə münasibət bildirmək üçün istifadə olunan “məntiq” anlayışından fərqlidir.

## II. BİLİYİN MƏNBƏLƏRİ VƏ VASİTƏLƏRİ

Əvvəlki hissələrdə istinad edilən Quran ayələri əsasında Məhəmməd İqbal belə qənaətə gəlmişdir ki, Quranda elmin mənbələri nəfs (*ənfus*) və xarici aləm ilə (afaq) əlaqəli olmaqla iki qismə ayrılır. Allah öz işarələrini həm daxili, həm də xarici təcrübə ilə bəyan edir. Quranda insanın daxili dünyası ilə bağlı biliyin ölçüsü təsvir edilir. Çox qəribə görünsə də, mistik təcrübə və intiusiya həm tamamilə təbii hesab edilməli, həm də insan təcrübəsinin digər aspektləri kimi nəzərdən keçirilməlidir (35). Daxili təcrübə insan biliyinin mənbələrindən biridir. Məhəmməd İqbal qeyd edir ki, Quranda əks olunan xarici təcrübə biliyin iki mənbəyini müəyyən edir. Bunlar təbiət və tarixdir. Bu mənbələr vasitəsilə İslam dininin mahiyyəti düzgün və müvafiq formada ifadə edilir.

Quran Günəş, Ay, gecə və gündüzün bir-birini əvəz etməsi, küləyin daimi olaraq dəyişməsi, rənglərin və dillə-

rin fərqli olması ilə reallıq işarələrini göstərir. Əslində isə təbiət ümumilikdə insanın ağlı və qavraması ilə bağlıdır. Müsəlmanların vəzifəsi bu işarələr haqqında düşünmək və təfəkkür etməkdir. "Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər" (Əl-Əraf, 7:179) ayəsində xəbərdarlıq edilən nüansa diqqət yetirməlidirlər, çünki bu işarələri görməyənlər ömür boyu reallıqlara qarşı kor olacaqlar. İlahi işarələr eşitmə, görmə və intellekt vasitəsi ilə qavranılır və dərk edilir: "Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri (bəsirət gözləri), eşidən qulaqları olsun?" (36) Burada vurğulanmaq istənilən əsas məqam təbiətdəki hadisələrin sadəcə duyğu orqanları ilə dərk edilməməsidir, çünki belə olduğu təqdirdə insanlar heyvanlardan fərqlənməzdi.

Ayələrin qavranılması üçün ağıl və idrak cütlüyünə istinad edilir. Bu prinsip Quranın həm elmi, həm də təcrübi əhəmiyyətini göstərir. Quranın "Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub şükür edəsiniz" (37) ayəsi ilə aydın olur ki, müqəddəs kitab qavrama və bilik üçün ən əsas faktordur. İşarələrin öyrənilməsi bu məfhumlar ilə mümkün olur. Quran işarələri dərk edənləri bu ayə ilə tərifləyir. "O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır" (38). Bu ayə əqli inkişaf prosesində qavramanın nə qədər vacib və zəruri olduğunu göstərir. Həmçinin Quran ağıl və qavrama ilə hər şeyin aydınlaşmadığına da işarə edir: "And içirəm gördüklərinizə və görmədiklərinizə ki..." (39) İnsan şüuru vaxt və məkan kimi dəyişənlər nəticəsində qaranlıq məqamları aydınlaşdıra bilmir. Buna görə də əminlik in-

san ağlının tam mənası ilə dərk etdiyi anlayış deyildir. Bu gün aydın olan məsələ sabah qaranlıq ola bilər.

Quranın bizə öyrətdiyi məlumatlara əsasən bilirik ki, kainat dinamik, sonlu və inkişaf qabiliyyəti olan məfhumdur. İlk müsəlman mütəfəkkirlər Quranın induksiya və təcrübəylə bağlı mesajlarına tam şəkildə diqqət yetirməmişdilər. Çünki müsəlman mütəfəkkirlər "Quranın mahiyyətinin, əsasən, anti-klassik olduğu"nu gec dərk etmişdilər. Müsəlman alimlər yunan düşüncə sisteminə etimad edirdilər. Ona görə də bu fikirdə olan müsəlman mütəfəkkirlər Quranı yunan fəlsəfəsi kontekstində başa düşməyə çalışmışdılar.

Quranın əsl mahiyyəti müsəlman mütəfəkkirlər tərəfindən dərk edilmişdir. Daha sonra bu proses Məhəmməd İqbal və Malik ibn Nəbinin (1905-1973) tədqiqatlarında davam etdirilmişdir.

Quranda həm kainatın dinamika konsepsiyası, həm də zaman kontekstində təkamül göstərilir. Bu baxımdan tarix Quranda üçüncü bilik mənbəyi hesab edilir. Məhəmməd İqbal yazırdı: "Xalqların kollektiv olaraq mühakimə edilməsi və müəyyən vaxtlarda yollarından azmalarının səbəbləri Quranın öyrətmək istədiyi ən vacib məsələdir". Quran mütəmadi olaraq tarixi hadisələri xatırladaraq insanları keçmiş və müasir zaman ilə bağlı təfəkkür etməyə çağırır. "Sizdən əvvəl bir çox vaqilər (ibrətli əhvalatlar) olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün" (41). Əgər siz (Ühud müharibəsində) yara aldınızsa, o biri (kafir) dəstə də (Bədr müharibəsində) o cür yara aldı. Biz bu günləri (bu hadisələri) insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri (başqalarından) ayırd etsin və içərinizdən şəhidlər (şahidlər) seçsin. Allah zülmkarları sevməz" (42). "Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır, (haqqı rəhbər tutaraq onlar arasında) ədalətlə hökm edirlər. Ayələ-

rimizi yalan hesab edənləri haradan olduğunu özləri də bilmədən tədriclə məhvə yaxınlaşdıracağıq! Mən onlara möhlət verirəm. Lakin dolaşdırıb bəla toruna salmağım da (naz-nemət içində yaşadıqları halda gözlənilmədən onları əzabla yaxalamağım da), sözsüz ki, çox ağırdır" (43).

Quran tarixi hadisələrə yalnız ümumiləşdirmə kontekstində yanaşmır. "Bu, bizə tarixi tənqid üçün əsas və zəruri prinsiplər təmin edir" (44). Bir elm olaraq tarixin əsas mahiyyəti düzgün məlumatları təqdim etmək olduğu üçün məlumatların kim tərəfindən təqdim edilməsi də ciddi məsələdir. Bunun üçün məlumatı təqdim edən insanın şəxsi keyfiyyətləri çox vacibdir. Quranda qeyd edilir: "Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız" (45). Bu ayədə əks olunan prinsip peyğəmbərin sünnəti barədə məlumat verənlərə də şamil olunub və tədricən bu ənənə tarixi tənqidin əsas mahiyyətlərindən birinə çevrilib.

Bununla belə, tarixin elmi cəhətdən təhlili daha böyük təcrübə, praktiki yanaşma, həyat və zaman ilə bağlı əsas ideyaların mənimsənilməsini tələb edir. Bunlar Quranın öyrətdikləri ilə birlikdə aşağıdakı üç əsas məsələdə əks olunur:

1. **İnsanların vəhdəti**: Quranda buyurulur: "Allah sizi tək bir nəfərdən xəlq etdi" (46). Lakin həyatın əsas üzvlərinin vahid şəkildə qəbul edilməsi sürətli şəkildə baş vermir. İslam bunun toxumlarını atır və insanlar da Quran işığında toxumların cücərməsinə nail olmalıdırlar. İslamdan əvvəl Xristianlıq dinində bəşəriyyətin birliyi ilə bağlı məsələlər əks olunsa da, Roma İmperiyasında insanların vəhdət halında yaşaması ümumi, mücərrəd konsepsiya sərhəddində təqdim edilirdi. Avropada milliyyətçiliyin artması fonunda ədəbiyyat və incəsənətdə insan faktoru kölgədə qalırdı. Üstünlüyün nümayiş etdirilməsi məqsə-

dilə həmin dövrdə müstəmləkəçilik geniş vüsət almışdı (47). Bu məsələ İslam dinində fərqli şəkildə təzahür edir. İslam dini insanların vəhdəti anlayışını təlqin edir və bu təcrübə bütün dünyaya yayılmalıdır.

2. **Zaman reallığını və həyatın zaman məfhumu çərçivəsində davamlı dəyişməsini tam qavrama**: Quranda gecə və gündüzün bir-birini əvəz etməsi mütləq reallığın işarəsi kimi qiymətləndirilir və reallığın özü də obyektiv olaraq zaman ilə əlaqəli İslam metafizikasına meyil etmə və vaxt intervalında təzahür edir. Bütün bunlar İslamın intellektual irsini və ideallarını formalaşdırır.

3. **Dini və dünyəvi dəyərlər arasında əlaqə**: Tarixdə ilk dəfə bu iki anlayış arasında ahəngin yaradılması üçün cəhdin göstərilməsi İslama aid qeyri-adi xüsusiyyətdir. Biz Mədinə dövlətində beynəlmiləl elan edilən dini dəyərlərin siyasi mühakimə üçün meyarlar qəbul edilməsi nümunəsini aydın şəkildə görürük. Siyasi liderlər və dövlət xadimləri yalnız mövcud vəziyyətləri ilə deyil, həmçinin ədalət, insan ləyaqəti, bərabərlik və azadlıq kimi məsələlərdə fərqlənməliydilər.

Fridrix Hegel (1770-1831) "Tarix fəlsəfəsi" adlı məşhur kitabında dünyəvi və dini dəyərlər arasında əlaqənin müasir Qərb cəmiyyətinə təsirindən çox əvvəl İslam cəmiyyətlərində və sivilizasiyalarında mövcud olmasını qeyd etmişdir. O yazırdı: "Biz dini və dünyəvi dəyərləri ziddiyyətli məqamlar kimi deyil, real, barbar dünya ilə dini prinsiplər arasında birləşdirici amil kimi nəzərə almalıyıq. Başlanğıcda daxili dünyanın inikası kimi ruh mücərrəd formada olur. Dünyəvi olan hər şey kobudluq və vəhşilik ilə nəticələnir. Barbarizmə ilk dəfə Məhəmməd peyğəmbərin Şərq dünyasını maarifləndirən prinsipləri qarşı çıxmışdır. Biz bu dinin Xristianlıqdan daha sürətli şəkildə təkmilləşməsinə şahid oluruq, çünki ikinci qeyd etdiyim dinin siyasi platformaya çevrilməsi üçün səkkiz əsrin keçməsi lazım gəldi" (48).

Müasir Qərb dünyası siyasi hakimiyyətdə İslam dinində mövcud olan ənənəni nümunə götürməyə başladı. Lakin müasir Qərb dünyəvi və dini dəyərlərin ahəngləşdirilməsini milli səviyyədə həyata keçirir. Buna görə də beynəlxalq arenada həm siyasətin gücü, həm də dünyəvi kobudluğun dinamikası açıq şəkildə hiss olunurdu. Bu uğursuzluq iyirminci əsrdə 100 milyondan çox insanın müharibə qurbanına çevrilməsinə səbəb oldu. Dünyəvi siyasətin təhlükəli olmasının qəbul edilməsi Birləşmiş Millətlər Təşkilatının təsis edilməsi ilə nəticələndi.

M. Safi haqlı olaraq kinayəli şəkildə qeyd edir ki, "Müasir Müsəlman cəmiyyətləri çox təəssüf ki, bu iki dəyər arasındakı əlaqəni sonlandırdılar və indi özləri böhran içindədirlər. Bir çox müsəlman rejimləri güc məntiqi ilə idarə olunur və mənəvi mühitdən kənardadırlar. Narahatlıq doğuran məqamlardan biri də odur ki, bu əlaqənin yoxluğu ilə siyasi korrupsiya və istibdada qarşı mübarizədə həm mənəvi, həm də dini dəyərlərdən uzaq strategiyaların hakim kəsildiyi dini hərəkatlara rəvac verilib" (49).

## III. DÜZGÜN QAVRAMA PROSESİNƏ MANE OLAN SƏBƏBLƏR

Quranda ayələrin mənalarını düşünməyin zəruriliyi qeyd edilir və düzgün məntiq yürütmək və təfəkkür etmək üçün müəyyən təlimatlar qeyd olunur. Müqəddəs kitabda intellektin müvafiq funksiyasına mane olan bir sıra faktorlar da əks olunmuşdur.

1. Sevgi, nifrət, özündən razılıq, məntiqli mühakimə və ədalətə mane olan qərəzli anlayışları ehtiva edən nəfs: "Nəfsini özünə tanrı edən və Allahın bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü?"(50) "Əgər sənə gələn elmdən (vəhydən) sonra onların (nəfslərindən

gələn) istəklərinə uysan, o zaman səni Allahdan (Allahın əzabından) qoruyacaq nə bir dost, nə də bir köməkçi tapılar..." (51) Burada iki anlayış arasında seçim edilməlidir: nəfs (istəklər, arzular) və təlimatlar. Birinci qeyd edilən məfhum təlimatların və düzgün nəticənin çıxarılmasının qarşısını alır.

2. Həqiqətə göz yumaraq zənnə qapılmaq: "Onların əksəriyyəti ancaq zənnə qapılır. Şübhəsiz ki, zənn həqiqəti heç cür əvəz edə bilməz. Allah onların nə etdiklərini bilir" (52). "Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır" (53). Zənnə qapılmaq elm və həqiqətə tamamilə ziddir. Quranda "zənn"ə qapılmamaq məsləhət görülür. Zəndən tamamilə uzaq durmaq qeyd edilmir. Quranın başqa bir ayəsində "zənn" və "nəfs" birlikdə istifadə olunur. "Onlar yalnız zənnə və nəfslərinin istəklərinə uyarlar" (54). İzah edilən "zənn" məhz bu kontekstdə başa düşülməlidir. Elm ağıl və qavrama sayəsində əldə edilir, ancaq o da qeyd edilməlidir ki, qavrama ilk vaxtlarda fərziyyə və şübhə sərhəddindən kənara çıxmır. Bəzi alimlər bu fikirdədir ki, təlimatların əldə edilməsi və doğruların öyrənilməsi üçün əsas kontekst dindir, iman məsələsində isə fərziyyə qapısı açılmamalıdır. Elmi araşdırma və biliyin əldə edilməsi sahələrində isə zənn qaçınılmazdır və ya bunun qarşısının alınması cəhdi müşahidə edilmir (55).

Burada əsas məsələ həqiqətin dərk edilməsidir. Hər kəs həqiqəti dərk etdikdən sonra buna əməl etməlidir. "Haqdan sonra zəlalətdən başqa nə ola bilər?" (56) "Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs onun kəlmələrini dəyişə bilməz (57)

3. Digər insanları kor-koranə yamsılamaq: İslam dinində doğru yolu tapmaq üçün ən məqsədəuyğun hesab edilən hərəkət digər insanları, mənasız ənənələri və uzun illər mövcud olan dəyərləri şüursuz şəkildə yamsılamaq

deyildir, şəxsi inam, iman və ağıl çərçivəsində həqiqəti dərk etməkdir. Bütün bunlar ağıl və məntiq müstəvisində edilməlidir və əgər onlar doğru yola yönəltmirsə, onda həmin yoldan imtina edilməlidir. Quranda doğru yoldan azanlar haqqında deyilir. "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq! Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?" (58) Bu, İbrahim və digər peyğəmbərlərin onlara qarşı gələn insanlara verdiyi cavabdır. Quranda tez-tez "Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz!" (59) ayəsinə rast gəlmək olur. Qeyd etməliyik ki, müsəlmanlar arasında tənqidi yanaşmanın zəifləməsinin ən əsas səbəbi digərlərini kor-koranə yamsılamaqdır.

4. Diktatorluq: Quranda qəddar diktatorlar və onların davamçıları haqqında məlumatlar kifayət qədərdir. Həmin davamçıların "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar!" (60) deməsi onlara heç bir köməklik göstərməyəcək. Quranda bir neçə ayədə Qarun, Firon və onların yollarından azmaları haqqında məlumat verilir. "Qarunu, Fironu və Hamanı da (məhv etdik). Onlar isə yer üzündə təkəbbürlük etdilər və (axırda əzabımızdan) qaça bilmədilər" (61).

## IV. TƏNQİDİ TƏFƏKKÜRÜN ZƏİFLƏMƏSİ

Mən yeni elm sahələrinin yaranmasında müsəlman mütəfəkkirlərin aparıcı rol oynaması ilə bağlı tarixi faktları təkrar etmək istəmirəm. Məlumdur ki, yunanlar öz elmi tədqiqatlarında məntiq və ağıla istinad edən deduksiya metodundan istifadə etmişlər. Yunanlardan fərqli olaraq, müsəlman alimlər Quranın təsiri nəticəsində induksiya və təcrübə metodlarını mənimsədilər və bu sahədə uğur qazandılar. Quranda həqiqətin aşkar edilməsi, elm öyrənmək və dünyanı müşahidə etməklə bağlı ayələrin olması elmi yaradıcılıq üçün mənəvi stimuldur.

Elm sahəsində İslamın qızıl çağı təxminən 700-ci ildə (QT) başlamış və 1350-ci ilə (QT) kimi davam etmişdir. İbn Sina, Cabir ibn Həyyan, Əbu Bəkir Zəkəriyyə əl-Razi, Əbu Rehyan Əl-Biruni, İbn əl-Nəfis əl-Dəməşqi, Əl-Xarəzmi kimi böyük alimlər və dövrün başqa mütəfəkkirləri anatomiya, tibb, riyaziyyat, kimya, optika və s. sahələrin inkişafına ciddi töhfələr vermişlər (62). O dövrün müsəlman cəmiyyətlərində linqvistika, arxitektura və incəsənətdə həm süni işarələr, həm də simvollara biganə yanaşılırdı. Ədəbiyyat və kitab sənayesi misli görünməmiş şəkildə inkişaf edirdi (63). Xalq arasındakı inanclara görə, alimlərin mürəkkəbi müqəddəs, qələm isə Allahın yaratdığı ilk əşya hesab olunurdu. Həmin vaxtlarda süni, yoxsa təbii şəkildə ortaya çıxan işarələrin daha çox diqqət çəkdiyini demək çox çətindir. Mədəniyyət və təbiət simvolik, rəmzi səciyyə daşıyırdı. Buna həmin vaxtlarda ətraf mühitə zərər vurmayan İslam arxitekturasını nümunə göstərə bilərik (64).

On dördüncü əsrdən sonra Monqol istilaları, Bağdadın yandırılması, İspaniyada müsəlman ərəblərin məğlub olması, davam edən Səlib yürüşləri, Osmanlı İmperiyasının süqutu və müstəmləkəçilik meyillərinin başlaması kimi müxtəlif faktorlara görə İslam dünyasında tənqidi düşüncə zəifləməyə başladı. Nəticədə İslam düşüncəsində yaradıcılıq meyilləri əvvəlki kəsərini itirməyə başladı. Ziyalı elitası və elm adamlarının teoloqlardan fəqləndirilməsi və intellektual mühafizəkarlıq, təqlid (yamsılama) yanaşmalarının hakim kəsilməsi kimi daxili problemlər də qeyd edilməlidir. Mövzular daralmağa başladı. Ümumi səciyyə daşıyan fəlsəfə və elm geriləməyə başladı. Belə bir düşüncə hakim kəsilmişdi ki, dini inanclara qarşı çıxılır və buna görə də dinin xilas edilməsi üçün mütəfəkkirlərin fəaliyyəti məhdudlaşdırılmalıdır. Kəlam, təfsir, hədis və fiqh kimi müxtəlif sahələrdə dini elmlərin inkişafı küfr, bidət, təqlid kimi meyarlar səbəbindən dayandı və ictihad qapısı bağlanmış oldu (65).

Son zamanlarda radikalizmə meyillər nəticəsində müsəlmanlar arasında yaradıcı təfəkkür zəifləmişdir. Bu vəziyyət təqlid tərəfdarlarının passivliyi ilə daha da pisləşdi. Bunun ən bariz nümunələrindən biri Quranın yaradıcı təfəkkür ilə bağlı əsas ayələrinə biganəlikdir. Malik ibn Nəbi qeyd edir ki, sivilizasiyaların və cəmiyyətlərin böhranı "maddi vəsitələrin və mənbələrin azlığı deyildir, ideyaların kasadlığıdır" (66).

## V. İCTİHAD NƏDİR

Quranın rasional düşüncə və araşdırma ilə bağlı qeydləri ictihad metodologiyası ilə məhdudlaşmır. Əslində, ictihad ilə bağlı Quranda aydın hissələr mövcud deyil. İctihad konsepsiyası peyğəmbərin hədisləri və onun səhabələrinin fəaliyyət və hərəkətlərindən ortaya çıxır. Hüquq elmində ictihad metodologiyası ictihad nəticəsində yaranır. Belə aydın olur ki, peyğəmbərin özü də ictihadı hüquqi düşünmə texnikası kimi deyil, yaradıcı stimul kimi qiymətləndirmişdir. Peyğəmbərin ictihaddan danışması və ya bunun nəticələrini təsdiq etməsi yaradıcı təfəkkürün inkişafı çərçivəsində nəzərə alınmalıdır.

Bəzi insanların mədəniyyət və hüquqi ənənələrə ifrat şəkildə bağlılığı təfəkkürdə məhdudiyyətlərin yaranmasına səbəb olur. Halbuki bu kimi hallar çox mənfi fəsadlara yol açır. Çünki həmin şəxslər müəyyən hədəflər və dəyərlər ilə məhdudlaşmayan sərbəst təfəkkürün tərəfdarı deyillər. Əvvəlki hissədə də qeyd etdiyimiz kimi, yaradıcı təfəkkür qavranılması mümkün olan prosesdir və mərhələli şəkildə məhsuldarlığa şərait yaradır. Qərbin liberal ənənəsi təfəkkür ilə bağlı minimal məhdudiyyət qoysa da, İslam yaradıcı təfəkkürə daha əhatəli və yaradıcı aspektdən yanaşır. Həm İslam, həm də Qərb ənənələri mühakimə üçün ağılın rolunu təsdiq edir, lakin İslamdan fərqli

olaraq liberal ənənədə mənəviyyat və iman elmi rasionallıqdan təcrid olunur.

İctihad metodologiyası mürəkkəb siyasi mühit, xilafətin monarxiya ilə əvəzlənməsi, sillogizm komponentləri və müqayisə ilə bağlı ellinizm düşüncəsi, fərqli təmayülləri təmsil edən alimlər (üləma) və hakim dairələr arasındakı uçurum kimi faktorların təsirinə məruz qalıb (67). Fiqh üsulu və təklif olunan metodologiya uzun və mürəkkəb bir prosesdən keçmiş və ictihad anlayışına zidd nəticələr meydana gətirmişdir. Bu vacib konsepsiyanın əhəmiyyətini yenidən dərk etməyə və ictihadın əsas vasitə kimi qəbul edilməsinə ehtiyac var. İctihad nəzəriyyəsinin müasir dövrün tələb və şərtlərinə cavab verməyən bəzi aspektlərini yenidən nəzərdən keçirmək lazımdır.

Burada mən ictihad nəzəriyyəsini və əlaqəli mövzuları müzakirə etdim, çünki bu kitabın həcmi azdır və təfsilatlı məlumatlar vermək mümkün deyildir (68). Bir daha qeyd etməliyəm ki, ictihad ilə bağlı ənənəvi nəzəriyyə bir daha nəzərdən keçirilməlidir. Müxtəlif təmayülləri və dünyagörüşünü təmsil edən alimlərin həm kollektiv, həm də məşvərət edilmiş ictihadlar ilə bağlı fikirlərini qəbul etmək və analiz etmək lazımdır. Həmçinin iqtisadiyyat, tibb, fizika, kimya və biologiya kimi digər sahələrin alimləri də ictihad prosesində iştirak edə bilər. Bir şərtlə ki, İslam elmi ilə bağlı anlayışları olsun. Onda bu alimlərə öz sahələri ilə bağlı ictihad etməyə imkanı vermək üçün bəzi dəyişikliklər edilməlidir. Onlar şəriəti bilən insanlar ilə birlikdə və ya onlardan məsləhət alaraq bu işi edə bilərlər.

İctihad həmrəylik və fikir birliyi deyildir, fərqlilik və fikir ayrılığıdır. Bir qayda olaraq fikir ayrılığı kimi qəbul edilməlidir, lakin fikir birliyi və həmrəyliyə də ciddi ehtiyac vardır. Alimlər və ixtisaslaşmış qurumlar fərqliliklərin olmasını çox qabartmamalı, əksinə, bu boşluğun ləğv edilməsi və həmrəylik məsələləri üzərində durmalıdırlar. Bu metodologiya fərqli ölkələr üçün müxtəlif təlimatlar

və tənzimləmələr tələb edə bilər, lakin istənilən halda bu nüanslar ictihad yanaşmalarında öz əksini tapmalıdır. Rəhbər şəxslər və mütəfəkkirlər tərəfindən qanunvericilik və məhkəmə hakimiyyəti daxilində fikir birliyinə istiqamətlənmiş təlimatlar hazırlana bilər.

Keçmişdən bəri ictihad hüquqi konsepsiya və metodologiya kimi nəzərə alınmışdır. Bizim ictihad ilə bağlı mənbə və dəlillərimiz bu çərçivəni müəyyən etmir. Əksinə, biz ictihadı müsəlmanların və müsəlman cəmiyyətlərinin üzləşdikləri problemlərin həlli üçün konsepsiya olaraq fikirləşirik. Bu amil bizim ictihad konsepsiyamızın fiqh ilə məhdudlaşmadığını və daha geniş sərhədlərdə nəzərə alınmasının vacibliyini təsdiq edir.

İslam hüququna görə, əgər hər hansısa bir məsələ Quranda aydın izah olunursa, bununla bağlı ictihad edilməməlidir. Bu prinsip də dəyişdirilməlidir. Bunun səbəbi odur ki, bəhs edilən məsələ hazırkı zamanda daha fərqli kontekstdə və daha başqa nəzər nöqtəsindən şərh edilə bilər. Yəni hüquqi mətnlər ilk olaraq dərk edilməlidir və bu işin mahiyyətində də ictihad vardır. Belə ki, ictihad daha dəqiq mənanın ortaya çıxarılmasına kömək etdiyi üçün buna qadağa qoymaq olmaz.

Müsəlmanlar arasında tənqidi təfəkkürün mütəmadi olaraq zəifləməsi hüquqşünasların və keçmiş imamların yolu ilə gedərək fərdi mühakimə və ictihaddan uzaq qalmaları ilə əlaqəlidir. Bunun digər bir səbəbi də müsəlmanlar arasında mövcud məzhəb və dini məktəblərdən birinin əsas və vacib olması düşüncəsinin geniş vüsət almasıdır. Belə olduğu təqdirdə müsəlmanlar neçə əsr əvvəl yaşamış və XXI əsr haqqında məlumatlara malik olmayan şəxslərin şərhləri naminə öz şəxsi fikir və mülahizələrindən əl çəkməli olurlar. Təxminən 1500-ci ilə kimi (QT) müstəqil ictihad sayəsində müsəlmanlar və müsəlman cəmiyyətləri sosial şərtlərin dəyişməsi və elmin inkişafı fonunda adaptasiya prosesini daha asan icra edirdilər. Təəssüf ki,

təxminən dörd əsr əvvəl Qərb dünyası inkişaf etdi və müsəlman sivilizasiyası zəifləməyə başladı. Bu prosesdə həm ənənəvi dəyərlərin, həm də institutların qorunması üçün müsəlmanlar daha mühafizəkar mövqe nümayiş etdirdilər. Nəticədə müsəlman mütəfəkkirlər innovasiya və adaptasiya prosesini mənfi bir xüsusiyyət kimi qələmə verməyə başladılar. Qadınlar, təhsil, düzgün idarəetmə və iqtisadi inkişaf ilə bağlı məsələlərdə yeni ictihad konsepsiyalarına ehtiyac var. Lakin müsəlmanlar arasında hakim olan yeni radikal qrupların əməlləri İslamın ruhuna və mahiyyətinə ziddir. Radikal qruplar daha çox ritorika və simvolik formalar sərgiləyirlər.

Elmi rasionlizm zəkanı neyrokimya səviyyəsində tədqiq etsə də, əqli və davranış fenomeni fiziki proseslər kimi başa düşülür. Bu xüsusiyyət insanları vacib anlayışlardan (iman, sevgi, gözəllik) məhrum edir və ruhu bədəndən, hissləri isə ağıldan ayrı təsəvvür edir. İqtisadiyyatda insan istehsalçı və istehlakçı funksiyasını icra edir və öz şəxsi maraqları daxilində hərəkət edir. Bu proses iqtisadi kriteriyalar kontekstində təbii ola bilər. Lakin insan mənəviyyatı və imanına həddən artıq dəyər verən İslam düşüncəsinə ziddir.

Zəkanın fiziki aspektdən təhlili antikonseptual və natamam hesab edilir. Əsas məsələ fizki kütlə səviyyəsində deyil, ayrılıqda nəzərə alına bilən insan ölçülərinin qəbul edilib-edilməməsidir. Moraviya yazır: “Biz hər hansı bir əşyanın fiziki mövcudluğunu həm qəbul edib, həm də qəbul etməyə bilərikmi? Ruhun inkarı, bio və neyroelmin nailiyyətləri sayəsində ortaya çıxan nəticələr insanı yalnız bir vücud, fiziki varlıq olaraq qəbul etməyimizə səbəb olmalıdır?” (70) Müasir dövrdə bəzi mütəfəkkirlər “ağıl” və “zəka” anlayışını Qərbə aid qədim dəyərlər, folklor nümunələri və dünyagörüşü əsasında şərh etməyə çalışırlar (71).

İslam fəlsəfəsi səbəblər ilə müqayisədə məqsədləri araşdırır və Quranda öyrədilənlər çərçivəsində obyektləri və hadisələri ilahi varlığın mövcudluğu olaraq görür. İman müsəlmanlar tərəfindən elmin məhdudlaşdırılması deyildir, mükəmməllik üçün vasitədir (72).

Qərb fəlsəfə və elmi variant müxtəlifliyi ilə səciyyələnir. Buna görə də Qərb dünyası müsəlmanların dünyəvi olmamasına təəccüblə yanaşmışdır. Bu əsassız düşüncə İslam dininin düzgün qiymətləndirilməməsinə, onun real mahiyyətinin və ənənələrinin səhv başa düşülməsinə yol açmışdır. Təəssüf ki, bu səhv anlama yalnız Qərbə məxsus deyildir. Bu gün müsəlmanların böyük əksəriyyəti ağıl və qavrama ilə bağlı zəngin miras haqqında məlumatlardan uzaqdırlar. Düşünən müsəlmanlar iman və ağıl arasındakı əlaqədən xəbərdar olurlar. Bu nadir və dəyərli məziyyəti bəşəriyyətin inkişafında İslamın töhfəsi kimi qəbul edirlər.

## VI. NƏTİCƏ

Ümid edirik ki, bu əsər təfəkkürlə bağlı məsələlərə Quran nöqteyi-nəzərindən aydınlıq gətirdi. Təfəkkür saflığın təmin edilməsi və mənfi təsirlərdən uzaq qalmaq üçün zəruri təlimatların aşkar edilməsi baxımından vacibdir. Bu təlimatlar mənəviyyat nöqteyi-nəzərindən də dəyərlidir. Çünki imansız və mənəviyyatsız təfəkkür insanlığa ancaq və ancaq zərər vura bilər. Quran müstəvisində təbiət elmləri Allahın kainatda işarələrinin dərk edilməsi üçün əsas rol oynayır, çünki bunlar yer üzündə insanlara zərər vurmadan və təbiət hadisələrinə müdaxilə etmədən fərdi, sosial problemlərin həlli üçün vasitə rolunu oynayır. Elmdə aşkar şəkildə etik dəyərlərin nəzərə alınmaması alimlərin məsuliyyət hisslərindən uzaq qalmasına yol açmış, yer üzündə insanların vəziyyətlərinin pisləşməsinə ciddi təsir etmiş və təbiətdə tarazlığın pozulması ilə nəticələnmişdir.

Təfəkkür etmək təlimlər, təcrübə, insanların şəxsi cəhdləri və başqa amillərin təsiri ilə də mümkündür. Müsəlman ölkələrində mövcud olan universitetlər və təhsil müəssisələrinin hamısı lazımi qaynaqlar ilə müvafiq səviyyədə təmin edilmirlər. Buna görə bu tip təhsil ocaqlarında mədəniyyət, həmçinin tənqidi təfəkkür ilə bağlı lazımi, zəruri məlumatların çatdırılması, tələbələr və alimlər arasında araşdırmaların aparılması kimi vacib məsələlərdə problemlər ortaya çıxır. Ali təhsil müəssisələrində təbiət və humanitar elmlər arasında əlaqələrin yaradılması ilə insanların mənfəəti üçün işlər görülə bilər. Fikrimcə, mövcud təhsil sistemi tələbələrin tənqidi təfəkkürünün inkişafı və onların daha geniş dünyagörüşünə malik olması üçün yenidən nəzərdən keçirilməlidir. Buna görə də alimlər müxtəlif elm sahələri arasında əlaqədən xəbərdar olmalıdırlar. Bir mütəxəssisin dediyi kimi, elmlərarası inteqrasiya, məlumat mübadiləsi "texniki və mühəndislik sahələrində təhsil alan tələbələrin təhsil proqramlarına humanitar fənlərin daxil edilməsi və bu fənlər arasında əlaqənin yaradılması ilə mümkündür" (73). İslam dininin nöqteyi-nəzərindən humanitar elmlərin əsas xüsusiyyəti İslamın etik və mənəvi dəyərləri ilə əlaqəli olmasıdır.

Semiotik məzmun və vasitələr məntiq, linqvistika, fəlsəfə, antropologiya, qrammatika və təbiət elmləri ilə qarşılıqlı əlaqə yaradır. Müsəlman alimlərin semiotik təhlil baxımından yüksək səviyyəli əsərləri ümumi və inteqrasiya edilmiş vəziyyətdə nəzərə alınmalıdılr. Semiotikanın fəlsəfə və linqvistikadan asılı olmayaraq ayrı bir elm sahəsi kimi inkişafı yeni və modern hadisədir. Məsələn, "Koqnitiv semiotika" 1990-cı illərdə yaranmışdır. Semiotikanın bu sahəsi texniki və humanitar elmlər arasında boşluğun aradan qaldırılmasına xidmət etməkdədir (74).

Bununla belə, müsəlmanların böyük əksəriyyətinin Quranı təfəkkür etmədən əzbərləməsi məntiqli deyildir. Quran oxunur, əzbərlənir və ondan intellektual məqsədlər

üçün deyil, mənəvi təkamül üçün istifadə olunur. Bu hal Quran tərəfindən verilmiş məsləhətə də ziddir. Əl-Qaradavi müsəlman ölkələrində apardığı müşahidəni belə şərh etmişdir: "Bu tip tədris sistemi təhlil və qavrama meyilli olması ilə deyil, əzbərçiliyə əsaslanması ilə səciyyələnir. Bu metodun tipik zəifliyi odur ki, imtahanlar qurtaran kimi əzbərlənən məlumatlar yaddan çıxır. Lakin öyrənilən məlumatlar təfəkkür və qavrama ilə inteqarsiya edilərsə, mahiyyət həmişə yadda qalacaqdır" (75). Bizim burada qaldırdığımız məsələ odur ki, uzun müddət davam edən ənənəyə əsasən alimlər, müəllimlər və hüquqşünaslar Quranın, hədisin və fiqh elminin öyrənilməsini idrak və təhlil çərçivəsində deyil, söz və cümlələrə diqqət yetirmək kontekstində dərk etmişlər. Quran ilə bağlı əsas yanaşmalar düzgün tələffüz və əzbərləmə ilə məhdudlaşırdı. Bu yanlış tədris sistemi daha çox ibtidai təhsildə tətbiq edilsə də, İslam elminin daha üst pillələrində də davam etdirilmişdir. (76).

Quran müsəlmanlar və müsəlman cəmiyyətlərində düşünmə, adət-ənənə və mədəniyyətin təkamülünə geniş miqyasda təsir göstərmişdir. Ancaq hələ də təfəkkür tam mahiyyəti ilə dərk olunmamaqdadır. Şübhəsiz ki, Quranda təfəkkürlə bağlı işarələr və əlamətlər əks olunmuşdur. Lakin fərdlər subyektiv tərif və təlimatlara sığmayan bu dəyərləri özlərinə xas anlayış və qavrama metodları ilə dərk etməyə çalışırlar. Yaradıcı ağıl mahiyyət etibarilə özünəməxsusdur. Təfəkkür prosesinin baş verməsi yaradanın öz ayələrində əks etdirdikləri ilə uzlaşır və olduqca dəyərli, nadir hədiyyədir.

Qeyd etməliyik ki, digər mədəniyyət və cəmiyyətlərdə də mütəfəkkirlər müxtəlif mənbə və hadisələr vasitəsilə tənqidi təfəkkürün inkişafına müəyyən töhfələr vermişlər və bu proses davam etməkdədir. Həmçinin tarixin müxtəlif dövrlərində bütün dinlərdə və mədəniyyətlərdə böyük mütəfəkkirlər yetişmişdir. Bu məsələ peyğəmbərin məşhur

“Elm Çində də olsa, arxasınca gedin” və “Ağıl möminin itirilmiş mülkiyyətidir, harda olsa onu tapmalıdır” hədislərində də əks olunmuşdur. Bilik və ağıl insanlıq üçün ortaq nailiyyətdir. Nəhayətdə tənqidi təfəkkürün nəticələri qloballaşan dünyada coğrafi sərhədlər ilə məhdudlaşmır.

Ümid edirik ki, mütəfəkkirlər və liderlər qardaşlıq, dostluq, sülh və rifah naminə dünya xalqları və mədəniyyətləri arasında fərqliliklərin minimuma endirilməsi məsələsini gündəliklərinə salacaq və bu problemin həllinə nail olacaqlar.

**Qeydlər**

1. Bax. Elma Berişa, "The Qur'anic Semio-Ethics of Nature." "Islam and civilisational Renewal" Jurnalı. cild. 8, nöm 1, (Yanvar 2017), səh. 49f

2. Yenə orda. səh 51

3. Müsəlman alimlərin ilk vaxtlarda ağıl ilə bağlı İslam və Qərb konsepsiyaları arasında fikirlərinə ağıl ilə bağlı kategoriyalar daxil deyildi və onlar Qərbdə "tənqidi ağıl, funksional ağıl, mücərrəd ağıl, imperialist ağıl" kimi anlayışlardan xəbərdar deyildilər. Təfsilatlı məlumat üçün bax: Əbdulvahab M. Elmessiri, "Features of the New Islamic Discourse," Qahirə konfrans materialı, 1997.

4. Fussilət surəsi 41: 23

5. Əz-Zariyat surəsi 51: 20

6. Sad surəsi 38 : 29

7. Bəzi alimlər ayələr ilə bağlı təfəkkür üçün ümumilikdə 30 ifadəni fərqləndiriblər. Bax: Əbu Bəkir əl-Razi, "Böyük təfsir" (Beyrut), II, səh.222f.

8. Məhəmməd surəsi, 47:24.

9. Ian Richard Netton, "Allah Transcendent, Studies in the Structure and Semiotics of Islamic Philosophy" məqaləsi "Theology and Cosmology" jurnalı (London & New York: Routledge Taylor & Francis Group, 1989), səh.321.

10. Əl-Bəqərə surəsi, 2:242

11. Ali-İmran surəsi, 3:118.

12.. Yusuf əl-Qaradavi, *Al-Aql va al-Ilm fi al-Quran al-Karim* (Qahirə: Maktabah Wahbah, 1416/1996), p.36.

13. Al-Raghib al-Isfahani, *Mufradat Alfaz al-Quran* (Beyrut: Dar al-Shamiyyah, 1383/1964) "Fikr".

14. Əl-Əraf surəsi 7:175 və 176; Əl-Həşr surəsi, 59:21; Ər-Rum surəsi, 30:21.

15. Karim Douglas Crow, "Islam and Reason" in *Al-Shajarah*, cild. 8, (2003), səh.120-I.

16. Abbas Mahmud al-Aqqad, "Al-Tafkir Faridah Islamiyyah" (Təfəkkür İslamın öhdəliyidir) istinad edilib Camal Badi və Mustapha Tajdin, "Tənqidi təfəkkür": İslam yanaşması, 2-ci nəşr., (Kuala Lumpur: Beynəlxalq İslam Universiteti Malaziya, 2005), səh.6.

17. Əl-Qaradavi, "Al-Aql wa al-Ilm", səh.41-45 istinad edib Qayyim əl-Cavziyyahın "Miftah Dar al-Saadah" və Aqqad "Al-Tafkir Fariah Islamiyyah" (Beyrut: al-Matbaah al-Asriyyah, 1992).

18. Ət-Tövbə surəsi, 9:122.

19. Ali-İmran surəsi, 3:48

20. Əl-Cumuə surəsi, 62:2

21. Ən-Nisa surəsi , 4:54.

22. Loğman surəsi, 31:12

23. Əl-Bəqərə surəsi, 2:269

24. Əl-Qaradavi, "Al-Aql wa al-Ilm", səh, səh.200.

25. Yenə orda, səh.202

26. Əl-Isfahani, "Mufradat Alfaz al-Quran", səh.249.

27. Seyid Məhəmməd Hüseyn Tabataba, "Al-Mizan fi Tafsir al-Quran" (Beyrut: Al-Muassasah al-Alami, 1383/ 1964), II, p.395.

28. Əlləddin əl-Mattaqi əl-Hindi, "Kanz al-Ummah fi Sunan al-Aqval va al-Afal (Beyrut: Al-Muassasah al-Alami, 1383/1981), hədis nöm. 5873.

29. Əbu Həmid Məhəmməd əl-Qazali, "Risalat al-Radd al-Laduniyya, Abd Allah Riyad Mustafa, (Dəməşq: Dar al-hikmah, 1986), səh.241.

30. Ən-Nəhl surəsi, 16:78.

31. Əhməd Fuad əl-Əhvani, "Al-Tarbiyah fi al-Islam (Qahirə: Dar al-Maarif bi-Misr, 1968), səh.227-228.

32. Əziz əl-Azmeh, "Arabic Thought and Islamic Societies" (London: Groom Helm, 1986), səh.109.

33. Diane F. Halpern, "Thought and Knowledge: An Introduction to Critical Thinking" (Mahwah: New Jersey, Lawrence Erlbaum and Associates, 1996), səh 21

34. Ibrahim B. Syed, “Critical Thinking” http://www.lrfi.org/articles/articles 101_150/critical_thinking.htm.

35. Məhəmməd Iqbal, “The Reconstruction of Religious Thought in Islam” (Lahore: Shah Muhammad Ashraf, yeni nəşr 1982), p.127

36. Əl-Həcc surəsi, 22:46.

37. Ən-Nəhl surəsi, 16:78.

38. Əz-Zumər surəsi, 39:18.

39. Əl-Haqqə surəsi, 69:38-39.

40. Malik ibn Nəbi, “Intaj al-Mustashriqin (Cairo: Maktabah Amir, 1990), səh 34.

41. Ali-İmran surəsi, 3:137.

42 Ali-İmran surəsi, 3:140.

43. Əl-Əraf surəsi, 7:181-182.

44. Iqbal, “Reconstruction of Religious Thought”, səh.139.

45. Əl-Hucurat surəsi’, 49:6.

46. Əz-Zumər surəsi, 39:6; Ən-Nisa surəsi’, 4:1.

47. Bax: Imam Feisal Əbdül Rauf, “What’s Right with Islam is What’s Right with America” (San Francisco: Harper Collins, 2004), səh.4-5.

48. Georg W. H. Hegel, “Philosophy of History” (New York: Dove Books, 1956), səh.109.

49. Louay Safi, “The Creative Mission of the Muslim Minorities in the West: Synthesizing the Ethos of Islam and Modernity,” Vestminster Universitetinə təqdim edilən konfrans materialı” (London, BK, Fevral 21, 2004: http://lsinsight.org/articles/Current/MuslimMinorities.htm.

50. Əl-Casiyə surəsi, 45:23.

51. Əl-Bəqərə surəsi, 2:120; Əl-Qəsəs surəsi, 28:50; Əl-Kəhf surəsi, 18:28.

52. Yunus surəsi, 10:36.

53. Əl-İsra surəsi’, 17:36.

54. Ən-Nəcm surəsi, 53:36.

55. Cf., M. H. Kamali, “Islam, Rationality and Science” “Islam and Science” jurnalı, (2003), cild. 1, nöm. 2, səh.126f;

bax: Mehdi Golshani, "Philosophy of Science from the Qur'anic Perspective" məqaləsi "Towards Islamisation of Disciplines" jurnalı (Herndon: International Institute of Islamic Thought, 1989), p.73f.

56. Yunus surəsi, 10:32.

57. Əl-Ənam surəsi, 6:115.

58. Əl-Bəqərə surəsi, 2:170, Əl-Maidə surəsi, 5:104.

59. Əl-Ənbiya surəsi, 21:54; Əl-Əraf surəsi 7:71.

60. Əl-Əhzab surəsi, 33:67.

61. Əl-Ənkəbut surəsi, 29:39.

62. Ishfaq Ahmad, "Research and Development Culture in the Islamic World: Past and Present Problems and Future Directions" in Abu Bakr Abdul Majeed et al. (eds.) "New Knowledge, Research and Development in the Muslim World" (Kuala Lumpur: Institute of Islamic Understanding Malaysia, 2004), səh.14-15.

63. Ziauddin Sardar, "Islam, Postmodernism and Other Futures". "A Ziauddin Sardar Reader" (London: Pluto Press, 2003).

64. Seyid Həsən Nasr, "Traditional Islam in the Modern World" (Kegan Paul International: 1990).

65. Oliver Leaman, "Institutionalising Research and Development Culture in the Islamic and Non-Islamic World: A Comparative Perspective", (ed.) "New Knowledge", səh.50-51.

66. Malik ibn Nəbi, "Intaj al-Mustashriq*i*n, səh.26

67. Məhəmməd Haşim Kamali, "Issues in the Understanding of Jihad and Ijtihad" "Islamic Studies", 40 (2001), p.ı-21ff.

68. M. H. Kamalinin, "Principles of Islamic Jurisprudence" 3-cü nəşr, (Cambridge: Islamic Texts Society, 1991, 2003) ictihad ilə ağlı fəsil var. "Islamic Studies" jurnalının 41-ci sayı (2002) səh 617-618 səhifələrində və 40-cı sayı (2001) səh ı-21 səhifələrində müvafiq olaraq "Issues in the Understanding of Jihad and Ijtihad" və "Issues in

the Legal Theory and Usul and Prospects for Reform" məqalələrinə bax.

69. Yazıçı "Shari'ah Law: An Introduction" (Oxford: Oneworld Publications, 2008), əsərində səh.165- də ictihad üçün yeni tərif müəyən edib.

70. Sergio Moravia, "The Enigma of the Mind: The Mind-Body Problem in Contemporary Thought, tr. S. Staton", (Cambridge: Cambridge University Press, 1995. İlk dəfə Romada nəşr olunub, 1986), səh 4-5.

71. Howard Gardner, "Intelligence Refrained: Multiple Intelligence for the 21st Century" (New York: Basic Books, 1999).

72. Roger Garudy tərəfindən "Towards Islamisation of Discipline" (Herndon: International Institute of Islamic Thought, 1989), jurnalında "The Balance Sheet of Western Philosophy in this Century" adlı məqaləsinə bax, səh 399f.

73. Mehdi Golshani, "Islamic Studies" jurnalının 44-cü sayı (2005) səh 13-də "From Knowledge to Wisdom: A Qur'anic Perspective" məqaləsi

74. Martin Lings, "The Symbolism of the Letters of the Alphabet", (Cambridge: Islamic Texts Society, 1993).

75. Yusuf əl-Qaradavi, *Fiqh al-Avlaviyyat*, səh.68

76. Əl-Ahvani, *Al-Tarbiyah fi al-Islam*, səh.189.

İDRAK